BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ VƏ MULTİKULTURALİZM MƏRKƏZİ

TƏHLİL

# Azərbaycana qarşı informasiya kampaniyasının arxa planı

**Fuad Abdullayev**

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az

SENTYABR 2026

## Azərbaycana qarşı informasiya kampaniyasının arxa planı

### Giriş

Son həftələrdə Azərbaycanla bağlı beynəlxalq informasiya və siyasi gündəlikdə, xüsusilə də məhkəmə hökmü çıxarılmış erməniəsilli şəxslərin azad edilməsi məsələləri ətrafında fəallığın nəzərəçarpacaq dərəcədə artdığı müşahidə olunur. Qeyd edək ki, bu proses yalnız ayrı-ayrı hüquq müdafiəçilərinin və ya siyasi dairələrin çıxışları ilə məhdudlaşmır, eyni zamanda beynəlxalq media, hüquq müdafiə təşkilatları, lobbiçilik və ictimai əlaqələr üzrə şirkətlər, humanitar təşəbbüslər və diaspor təşkilatlarının paralel fəaliyyəti ilə müşayiət olunur. Sözügedən fəaliyyətlərin müxtəlif platformalarda bir-birini tamamlayan tezislər ətrafında cəmləşməsi məsələnin ayrı-ayrı təşəbbüslərdən daha geniş, çoxkanallı siyasi-kommunikasiya kampaniyasına çevrilməsi ehtimalını artırır.

### Beynəlxalq informasiya və hibrid təzyiqin intensivləşməsi

Son dövrdə Azərbaycanın beynəlxalq məkanındakı mövqeyinə təsir göstərməyə yönəlmiş fəaliyyətlərin əsas istiqamətlərindən biri məhz məhkəmə hökmü çıxarılmış erməniəsilli şəxslərin azad edilməsi məsələsinin ön plana çıxarılması durur. Qərb mediasında yayımlanan materiallar, hüquq müdafiə təşkilatlarının bəyanatları, parlament strukturlarının qətnamələri və müxtəlif humanitar təşəbbüslər vasitəsilə eyni mövzu müxtəlif auditoriyalara uyğun formada təqdim edilir. Bu yanaşmada sözügedən şəxslərin “hərbi əsir” və ya “siyasi məhbus” kimi təqdim olunması, məhkəmə proseslərinin siyasi xarakter daşıdığı barədə tezislərin yayılması və Azərbaycanın hüquq sistemi ilə bağlı mənfi təsəvvürlərin formalaşdırılması xüsusi yer tutur. Burada məqsəd məsələnin ikitərəfli Ermənistan-Azərbaycan münasibətləri çərçivəsindən çıxarılaraq beynəlxalq hüquq, insan hüquqları və siyasi təzyiq gündəliyinin tərkib hissəsinə çevrilməsidir.

Qeyd edək ki, Azərbaycan tərəfinin mövqeyinə görə, bu şəxslər hərbi əsir deyil, konkret cinayət əməllərində ittiham olunan və məhkum edilmiş şəxslərdir. Bu baxımdan məsələnin beynəlxalq siyasi kampaniya vasitəsilə yenidən “hərbi əsirlər” və “siyasi məhbuslar” kontekstində təqdim olunması Azərbaycanın hüquqi mövqeyinə qarşı informasiya təzyiqinin əsas elementlərindən biri kimi çıxış edir.

### Diasporun müəyyən etdiyi uzunmüddətli gündəlik

Müşahidə olunan fəallığın xarakteri göstərir ki, bu proseslərin spontan ictimai reaksiyanın nəticəsi olması barədə yanaşma kifayət qədər əsaslı görünmür. Belə ki, erməni diasporunun müxtəlif platformalarda Azərbaycanla bağlı humanitar, hüquqi və siyasi məsələləri ardıcıl şəkildə gündəmə gətirməsini göstərən və bu fəallığın daha geniş və əvvəlcədən müəyyən edilmiş gündəliyin tərkib hissəsi ola biləcəyinə dəlalət edən əsaslı faktlar var. Bu baxımdan, diaspor tərəfindən formalaşdırılan və uzunmüddətli xarakter daşıyan gündəlik həmin yanaşmanın bariz nümunəsi kimi

qiymətləndirilə bilər. Çünki, cari ilin 11-12 aprel tarixlərində Parisdə keçirilmiş erməni diasporunun "Milli Səfərbərlik Konfransında" diaspor nümayəndələri Ermənistan-diaspor münasibətləri, mövcud milli çağırışlar və dəyişən geosiyasi şərait müzakirə edib və erməni diasporunun vahid ümumerməni gündəliyi ətrafında əlaqələndirilmiş səfərbərliyin zəruriliyi vurğulanıb. Bu konfransda Qarabağ "məsələsi"nin gündəmdə saxlanılması ilə yanaşı, bəzi konkret istiqamətlər üzrə fəaliyyətin davam etdirilməsi barədə razılıq əldə olunub. Bu istiqamətlər arasında barələrində hökm çıxarılmış erməniəsilli şəxslərin azad edilməsi ilk sırada olmaqla, Qarabağın erməni mədəni irsinin qorunması, Qarabağ ermənilərinin hüquqlarının müdafiəsi və onların kollektiv geri qayıtmaq hüququnun beynəlxalq səviyyədə gündəmə gətirilməsi xüsusi yer tutur. Beləliklə, erməni diasporunun gündəliyində Azərbaycanla bağlı məsələlər uzunmüddətli prioritet kimi müəyyənləşdirilib. Xüsusilə hərbi əsirlərin azad edilməsi kimi məqsədin ilk sıraya qoyulması erməni diaspor resurslarının bu istiqamətlərdə daha sistemli şəkildə səfərbər edilməsinin nəzərdə tutulduğunu göstərir. Qeyd edək ki, konfransın nəticələrinə və əldə edilmiş qərarlarına dair avqust ayında yeni internet səhifəsi də istifadəyə verilib və bu məlumatlar orada öz əksini tapıb.[1]

**İnformasiya kampaniyasının mənbələri**

Erməni diasporunun yuxarıda qeyd olunan uzunmüddətli gündəliyinin praktiki müstəvidə irəli sürülməsini və bu fəaliyyətlərə dəstəyin göstərilməsini Ruben Vardanyanın ailəsi və onunla əlaqəli strukturların fəaliyyəti, eləcə də ABŞ-da fəaliyyət göstərən hüquqi və lobbiçilik şirkətlərinin prosesə cəlb olunması nümunəsində də görmək mümkündür. Xüsusilə, "Ruben Vardanyan Fondu", eləcə də nüfuzlu erməni diaspor nümayəndələri tərəfindən dəstəklənən "Free Armenian Prisoners" platforması və bu platforma vasitəsilə təbliğatın miqyası diqqət çəkir.[2] Qeyd etmək lazımdır ki, Parisdə keçirilmiş erməni diasporunun konfransında müəyyən edilən gündəlik həmin səhifədə də öz əksini tapıb.

Proseslərin bir mərkəzdən idarə olunduğunu göstərən digər əhəmiyyətli fakt, ABŞ-da fəaliyyət göstərən "Perseus Strategies" şirkətinin R.Vardanyanın ailə üzvlərinin maraqlarının müdafiəsi üzrə fəaliyyətidir.[3] Qeyd edək ki, ABŞ-ın açıq lobbiçilik hesabatlarında[4] şirkətin Senat, Nümayəndələr Palatası, Dövlət Departamenti və digər siyasi institutlarla sözügedən məsələlər üzrə fəaliyyət apardığı qeyd olunur. İstisna edilmir ki, bu mexanizmlər vasitəsilə erməni diasporu eyni tezisləri media, siyasi dairələr və ictimai təşkilatlar arasında sistemli şəkildə yaymaqla təşkilatlanmış kampaniya həyata keçirir. Beləliklə, Azərbaycana qarşı müşahidə olunan hibrid təsir fəaliyyətlərinin müxtəlif aktorlar tərəfindən eyni siyasi məqsəd istiqamətində və bir-

1 https://spyurkconference.org/hy/press-releases
2 https://freearmenianprisoners.com/words-of-support/
3 https://perseus-strategies.com/client/ruben-vardanyan
https://perseus-strategies.com/clients/#current_clients
4 https://lda.gov/filings/public/filing/21a5ef76-d53d-4647-83d5-d264e432ba3d/print

birini tamamlayan şəkildə həyata keçirildiyi qənaətinə gəlmək mümkündür. Bu baxımdan, müşahidə olunan fəallığı yalnız spontan ictimai reaksiyanın nəticəsi kimi qiymətləndirmək kifayət qədər əsaslı yanaşma deyil.

## Ermənistan daxilində funksional koordinasiya

Xarici platformalarda müşahidə olunan fəallıqla yanaşı, Ermənistan daxilində də məsələnin siyasi və institusional müstəvidə təşviqi üçün müəyyən imkanların formalaşdırıldığı görünür. Belə ki, yuxarıda qeyd olunan prosesləri birlikdə nəzərdən keçirdikdə, məsələnin Ermənistan daxilində yalnız müxalifət və ya ayrı-ayrı hüquq müdafiəçilərinin təşəbbüsü səviyyəsində qalmadığını görmək olar. Bu baxımdan Lilit Qalstyanın Ermənistan parlamentinin İnsan hüquqlarının müdafiəsi və ictimai məsələlər üzrə daimi komitəsinin sədri, [5] onun müavini vəzifəsinə isə “Güclü Ermənistan” blokundan Marianna Qəhrəmanyan[6] seçilməsi xüsusi diqqət çəkir. Belə ki, “Daşnaksütyun” partiyasının üzvü və “Ermənistan” blokunun deputatı olan Lilit Qalstyan, eləcə də müxalifətin üzvü Marianna Qəhrəmanyan Ermənistan-Azərbaycan sülh prosesinə və hökumətin siyasətinə daha sərt münasibəti ilə seçilir. Qeyd edək ki, L.Qalstyanın əvvəlki parlament çağırışında da eyni komitəyə rəhbərlik etməsi və həmin dövrdə erməni məhbusların azad edilməsi məsələsini beynəlxalq platformalarda gündəmə gətirməsi nəzərə alındıqda, onun məhz bu komitəyə rəhbər seçilməsi beynəlxalq kommunikasiya baxımından əlavə imkan yaradır. [7] Belə ki, müxalifət qanadının erməni diasporu ilə olan əlaqələri hazırkı hakimiyyətin əlaqələrindən daha genişdir və bu istiqamətdə hakimiyyətdən daha çox iş görə bilər. Burada diqqət çəkən əsas məqam bu şəxslərin həmin vəzifələrə hakim partiya üzvlərinin dəstəyi ilə, ilk səsvermədə seçilməsidir. Çünkü, parlamentin digər üç komitəsi üzrə “Güclü Ermənistan” blokunun namizədləri ilk səsvermədə hakim partiyanın dəstəyini ala bilməmiş, onlardan yalnız biri ikinci səsvermədə seçilmiş, digər ikisi isə hələ də seçilməmişdir.

Beləliklə, Ermənistanın yeni hökuməti rəsmi diplomatik xətdən daha sərt mövqedə dayanan siyasi qüvvələrin nümayəndələrini insan hüquqları ilə əlaqəli komitədə vəzifələndirməklə, erməni diasporunun gündəliyində olan məsələlərin beynəlxalq platformalarda daha fəal şəkildə irəli sürülməsinə şərait yaratmış olub, ki bunu da, sülh gündəliyinə zidd hesab etmək olar. Təbii ki, burada söhbət birbaşa və formal siyasi razılaşmanın mövcudluğundan deyil, mümkün funksional koordinasiyadan gedir. Belə modeldə Ermənistan hakimiyyəti Azərbaycanla münasibətlərdə və sülh prosesində daha ehtiyatlı diplomatik ritorikanı qoruyarkən, parlament və müxalifət

[5] https://www.arfd.am/new/news/89581/

[6] https://www.aysor.am/am/news/2026/09/08/%D5%82%D5%A1%D5%B0%D6%80%D5%A1%D5%B4%D5%A1%D5%B6%D5%B5%D5%A1%D5%B6/2430639

[7] https://am.sputniknews.ru/20260220/deputat-lilit-galstyan-raskritikovala-bezdeystvie-pase-po-voprosu-armyanskikh-plennykh-v-baku-99054574.html
https://armeniatoday.am/politics-ru/1097540/

strukturları insan hüquqları və beynəlxalq parlament diplomatiyası kanalları vasitəsilə daha sərt mövqeləri gündəmə gətirəcəyi istisna edilmir.

Son proseslərin arxa planında Ermənistan hakimiyyətinin olduğuna dəlalət edən daha bir hadisə yaşanıb. Belə ki, Ruben Vardanyanın həyat yoldaşı Veronika Zonabend Ermənistanın XİN nümayəndələri ilə görüş keçirib. Görüşdə, hökm verilmiş 15 erməniəsilli şəxsin hüquqlarının ehtimal olunan pozuntuları ilə bağlı AİHM-ə kollektiv şikayət təqdim edən hüquq müdafiəçisi Siranuş Sahakyan da iştirak edib. Tərəflər, Zonabendin, məhkəmə hökmü verilmiş erməniəsilli şəxslərə baş çəkmək üçün beynəlxalq qadın nümayəndə heyətinin Bakıya səfərinin təşkili ilə bağlı təşəbbüsünə dövlət dəstəyinin göstərilməsi imkanlarını, habelə üçüncü ölkə vasitəsilə, onlara konsulluq xidmətlərinin göstərilməsi və digər humanitar təşəbbüslərin həyata keçirilməsi məsələlərini müzakirə ediblər.[8]

Parlament seçkilərindən sonra Ermənistanın yüksək vəzifəli rəsmilərinin müxtəlif vaxtlarda hökm verilmiş erməniəsilli şəxslərin geri qaytarılması məsələsinin hökumətin gündəliyində qaldığına və bu istiqamətdə işlərin davam etdirildiyinə dair açıqlamaları müşahidə olunur. Belə ki, Ermənistanın Təhlükəsizlik Şurasının katibi Alen Simonyan bildirib ki, bu məsələ hakimiyyətin gündəliyində qalır və Ermənistan tərəfi üçün bu məsələ üzrə fəaliyyətin dayandırılması variantı mövcud deyil.[9] Parlamentin spikeri Ruben Rubinyan isə qeyd edib ki, hökm verilmiş erməniəsilli şəxslərin geri qaytarılması məsələsi üzrə iş Ermənistan hakimiyyətinin gündəlik fəaliyyətinin bir hissəsidir. O, həmçinin bildirib ki, fəaliyyət davam edir və nəticə əldə olunana qədər davam etdiriləcək.[10] Analoji mövqe baş nazir Nikol Paşinyan tərəfindən də ifadə olunub. O, bildirib ki, həmin şəxslərin hökumətin gündəliyindən çıxarılmayıb və məsələ həll olunana qədər gündəlikdə qalacaq. Paşinyan həmçinin danışıqlar prosesinin ictimaiyyətə açıqlanmasında ehtiyatlı olmağın zəruriliyini vurğulayıb və bunun səbəbi kimi məsələnin həssas xarakterini göstərib.[11] Parlamentin Xarici Əlaqələr üzrə Komitəsinin sədri Sarqis Xandanyan bu məsələnin öz parlament fəaliyyətinin mühüm istiqamətlərindən olacağını açıq şəkildə bildirib.[12] Baş nazir Nikol Paşinyanın keçmiş mətbuat katibi, hazırkı parlamentin deputatı Nazeli Bağdasaryan isə parlamentdə çıxışı zamanı bu istiqamətdə aparılan prosesin həssas xarakter daşıdığını və məhz bu səbəbdən fəaliyyətlərin heç vaxt açıq şəkildə həyata keçirilmədiyini, əsas işlərin səssiz şəkildə və ictimaiyyətə açıqlanmadan aparıldığını bildirib. O, əlavə edib ki, bu istiqamətdə görülmüş işləri təsdiqləyən materialları, habelə Avropa Şurasının İnsan Hüquqları Komitəsinə ünvanlanmış məktubları, bu yazışmalarla bağlı məlumatları və qeydləri təqdim edilə bilər.[13]

---

8 https://newsarmenia.am/news/politics/initsiatory-gumanitarnoy-missii-vizita-k-armyanskim-plennym-v-baku-proveli-vstrechu-s-predstavitelya/
9 https://newsarmenia.am/news/armenia/alen-simonyan-isklyuchil-snyatie-s-povestki-voprosa-armyanskikh-plennykh-v-baku/
10 https://armenpress.am/ru/article/1257059
11 https://armenpress.am/ru/article/1258698
12 https://armenpress.am/ru/article/1258004
13 https://youtu.be/hFd1PDO3RzA?t=238

**Nəticə**

Yekun olaraq qeyd etmək olar ki, ümumilikdə, son dövrdə Azərbaycana qarşı həyata keçirilən hibrid hücumlar və bu fonda, hökm verilmiş erməniəsilli şəxslərin azad edilməsi gündəliyi istiqamətində müşahidə olunan fəallıq ayrı-ayrı hüquq müdafiəçilərinin, siyasi qüvvələrin və ya diaspora təşkilatlarının müstəqil təşəbbüsləri kimi deyil, bir-birini tamamlayan çoxsaylı kanalların fəaliyyəti kontekstində qiymətləndirilməlidir. İnformasiya kampaniyaları, beynəlxalq lobbiçilik, hüquqi mexanizmlər, parlament diplomatiyası, humanitar təşəbbüslər və diaspora səfərbərliyi eyni mövzunun müxtəlif auditoriyalara və platformalara çıxarılmasını təmin edir.

Xüsusilə diasporun öz gündəliyində müəyyən edilən məsələlər üzərindən Azərbaycana qarşı həyata keçirilən informasiya hücumları və təbliğat bu prosesin müxtəlif komponentləri arasında məzmun baxımından uyğunluq olduğunu göstərir. Bu prosesdə Ermənistan dövlətinin rolunun qiymətləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Belə ki, rəsmi İrəvam məsələni öz gündəliyində saxladığını açıq şəkildə bəyan etməsi və müxalifət nümayəndələrinin müvafiq parlament strukturlarında rəhbər vəzifələrə seçilməsini təmin etməsi onun erməni diasporunun gündəliyində olan məsələlərin təbliğinə şərati yaratması kimi qiymətləndirilir. Bu isə sülh gündəliyinə ziddir.

Bununla yanaşı, təəssüf doğuran məqam ondan ibarətdir ki, nüfuzlu beynəlxalq təşkilatlar və xüsusilə Qərbin bir sıra rəsmi qurumları bu təşəbbüslərin arxasında dayanan erməni diaspor strukturlarının və onlarla əlaqəli lobbi şəbəkələrinin rolunu lazımi səviyyədə nəzərə almır. Nəticədə isə beynəlxalq hüquq və insan hüquqları məsələlərinə münasibətdə obyektivlik prinsipi kölgədə qalır və müəyyən hallarda ikili standartlar təsəvvürü yaranır.

**Müəllif: Fuad Abdullayev, Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin (BMTMM) aparıcı məsləhətçisi**